# “Nəsimi və Azərbaycan dili”

Qax rayonu Qıpçaq kənd tam orta məktəbində İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyi ilə əlaqədar “Nəsimi və Azərbaycan dili” mövzusunda tədbir keçirilib. Tədbirdə çıxış edən Azərbaycan dili və ədəbiyyat müəllimləri Nəsiminin Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarından biri olduğunu söyləyiblər. Bildiriblər ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2019-cu ilin ölkəmizdə “Nəsimi İli” elan edilməsi şairə verilən dəyərin, hörmət və ehtiramın ən yüksək göstəricisidir. Bu sərəncam Azərbaycan mədəniyyətinin, zəngin tarixi-mədəni irsinin təbliğinə çox böyük töhfədir.

Tədbirdə “Nəsimi” kinosundan fraqmentlər göstərilib. Sonra məktəbin şagirdləri Nəsiminin həyatından bəhs edən səhnəcik təqdim edib, şairin qəzəllərindən nümunələr söyləyiblər.

Sonda ən yaxşı iştirak edən şagirdlər tərifnamə ilə mükafatlandırılıb.

**Günay MAHMUDOVA,**
*Qax Rayon Təhsil Şöbəsinin*
*ictimaiyyətlə əlaqələr üzrə məsul şəxsi*

Azərbaycan müəllimi.- 2019.- 31 may.- S.10.